**Orucoğlu Z.** Müqəddəs amal uğrunda // Respublika. - 2024. - 14 iyul. - **№ 146**. - S. 13.

**Həsən Turan oğlu Dəmirovu şəhidlik zirvəsinə ucaldan Vətən, torpaq sevgisi olub. 26 yaşında əbədiyaşarlıq qazanıb. Müqəddəs amal uğrunda canını fəda etdiyinə görə Vətən öz qəhrəman oğlunu bir an belə unutmur, adı xalqın dilində iftixarla çəkilir. Onun bu qısa ömür yolu gələcək nəsillərə örnək olacaq.**

Vətən qarşısında xüsusi xidmətləri olan, 44 günlük haqq savaşımızda tarix yazan Həsən Dəmirov 1994-cü ildə Cəlilabad rayonu, Muğan kəndində dünyaya göz açıb. Orta məktəbini başa vuran Həsən yağı düşmənin Qarabağımızın ədalətsiz işğalını vicdanına sığışdıra bilməyib. Elə onu ordu sıralarına aparan da düşməndən qisas almaq arzusu olub. Əsgərlik həyatına cəbhə bölgəsində başlayan Həsən layiqli bir övlad kimi Vətən qarşısında borcunu ləyaqətlə yerinə yetirib. Bütün təlimlərdə fəal olub, cəsurluğu, çevikliyi əsgər yoldaşlarına həmişə nümunə göstərilib. Söz düşəndə bildirib ki, Vətən müqəddəsdir, onun yolunda ölüm belə şərəfdir. Vətən torpaqlarının bir qarışı da düşmən ayaqları altında qalmasın gərək.

Həsən əsgərlikdən sonra qanında, canında el məhəbbətini gəzdirməklə həyatına davam edib. Düz amallı, təmiz əməlli oğul olaraq cəmiyyətdə sevilib. Ürəyi hər zaman Vətənlə döyünən Həsən nə olursa-olsun öz yerini cəbhə bölgəsində görüb. Odur ki, orduya qayıdıb və "N" saylı hərbi hissədə kəşfiyyatçı kimi xidmətə başlayıb. Vətən müharibəsinin ilk günündə odlu-alovlu səngərdə yerini alıb. İgid döyüşçü Suqovuşan-Talış istiqamətində düşmənin illərlə qurduğu istehkamları yararaq onun həm canlı qüvvəsinə, həm də texnikasına böyük zərbə vurub. Yağıya qarşı əzmlə, rəşadətlə vuruşan Həsən yalnız qələbəyə doğru irəliləyib. Qorxmazlığı, cəsarəti ilə düşmənin altı postunun alınmasında hünər göstərib. Səhərə yaxın növbəti post uğrunda gedən ağır döyüşdə xain gülləsinə tuş gəlib. Ölümsüzlüyü ilə əbədi olaraq milyonların ürəyinə köç edib.

Vətən, torpaq uğrunda ən ali məqama - şəhidlik zirvəsinə ucalan Həsən Turan oğlu Dəmirov Azərbaycan Prezidentinin Sərəncamına əsasən "İgidliyə görə", "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.